

# POLİS

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

www.pq.mia.gov.az

polisazerbaycan

23 iyul 2026-cı il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 27 (3790)

# Dərinləşən strateji tərəfdaşlıq





## Azərbaycan ilə Almaniyanın münasibətləri dinamik şəkildə inkişaf edir

***Prezident İlham Əliyev:** “Azərbaycan-Almaniya əlaqələri təkcə ikitərəfli münasibətlərə yox, bütövlükdə bölgəmizdə əməkdaşlığa, sülhə, əmin-amanlığa öz töhfəsini verəcəkdir.”*

***Kansler Fridrix Merts:** “Bölgədə daha böyük sabitlik ölkələrimiz arasında iqtisadi sahədə də geniş əməkdaşlıq üçün yeni imkanlar yaradır.”*

Geosiyasi reallıqlar və qlobal iqtisadi transformasiyalar dövlətlərarası tərəfdaşlıq formatlarının yenidən nəzərdən keçirilməsini zəruri edir. Bu kontekstdə Cənubi Qafqazın lider dövləti Azərbaycanla Avropanın aparıcı güclərindən sayılan Almaniya arasında qurulan dialoq xüsusi strateji çəkiyə malikdir.

İyulun 21-də Azərbaycan Prezidenti İlham Əliyevin Berlində Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayer və Kansler Fridrix Mertslə keçirdiyi ali səviyyəli görüşlər, habelə tarixi sənədin imzalanması iki ölkə arasındakı münasibətlərin keyfiyyətcə yeni, strateji müstəviyə keçdiyinin aydın təzahürüdür.

Almaniya Prezidenti Frank-Valter Ştaynmayer dünyada və regionda cərəyan edən hadisələr fonunda Azərbaycanı və Almaniyanı sabitlik adası kimi xarakterizə edib. Ştaynmayer Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı rolu xüsusi vurğulayıb. Görüşlərdə enerji təhlükəsizliyi müstəvisində də əhəmiyyətli mesajlar verilib.

Prezident İlham Əliyev Azərbaycanın Avropanın enerji təminatında oynadığı rola toxunaraq, ölkəmizin Almaniya və Avstriyaya təbii qaz ixrac etdiyini diqqətə çatdırıb. "Cənub qaz dəhlizi" və İtaliyanın qazpaylayıcı şəbəkəsi vasitəsilə SOCAR Almaniya şirkətlərini illik təxminən 2 milyard kubmetr həcmində təbii qazla təmin edir.

Səfərin mühüm siyasi-hüquqi nailiyyəti Prezident İlham Əliyev və Kansler Fridrix Merts tərəfindən "Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası arasında ikitərəfli tərəfdaşlıq üçün strateji gündəliyə dair Birgə Bəyannamə"nin imzalanmasıdır. Bununla bərabər, tərəflər arasında Azərbaycan-Almaniya Biznes Şurasının yaradılmasına və fəaliyyətinə dair də Birgə Bəyannamə imzalanıb.

Prezident İlham Əliyev və Kansler Fridrix Merts birgə mətbuat konfransı zamanı da mühüm bəyanatlar səsləndirdilər. Prezident İlham Əliyev deyib ki, biz artıq strateji dialoqun başlanmasını arzulayırdıq və buna nail olmuşuq: "Əminəm ki, bu gün imzalanmış sənədlər bizim əlaqələrimizi yeni səviyyəyə qaldıracaq". Dövlətimizin başçısı qeyd edib ki, Azərbaycan-Almaniya əlaqələri təkcə ikitərəfli münasibətlərə yox, bütövlükdə bölgəmizdə əməkdaşlığa, sülhə, əmin-amanlığa öz töhfəsini verəcək. Tranzit imkanları ilə bağlı da Almaniya-Azərbaycan əməkdaşlığının çox böyük əhəmiyyəti var, çünki Almaniyanın şirkətləri bu istiqamətdə çox böyük uğurlar əldə ediblər. Dövlətimizin başçısı əlavə edib ki, Azərbaycan öz nəqliyyat infrastrukturunu təkmilləşdirir və bir növ Mərkəzi Asiya ilə Avropa arasında körpü rolunu oynayır. Kansler Fridrix Merts də Almaniya ilə Azərbaycan arasındakı münasibətlərin çox dinamik şəkildə inkişaf etdiyini vurğulayıb.

# Prezidentdən təbrik məktubu

## “Strateji tərəfdaşlığımızın gündən-günə dərinləşməsi məmnunluq doğurur”

“Biz zəngin və xoş ənənələrə əsaslanan Azərbaycan-Birləşmiş Krallıq münasibətlərinin hərtərəfli inkişafına xüsusi əhəmiyyət veririk. İqtisadi-ticari əməkdaşlığımızın dinamikası, enerji sahəsində sınaqdan çıxmış strateji tərəfdaşlığımızın gündən-günə dərinləşməsi və yeni məzmunla zənginləşməsi məmnunluq doğurur”.

Prezident İlham Əliyevin Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri vəzifəsinə təyin olunmuş Endi Börnhemə ünvanladığı məktubunda belə qeyd edilib.

Dövlətimizin başçısı torpaqlarımızın işğaldan azad olunmasından sonra Azərbaycanın dəvət etdiyi ilk xarici şirkətlər sırasında Birləşmiş Krallığın şirkətlərinin yer almasını və bu gün orada aparılan bərpa və quruculuq işlərində yaxından iştirak etməsinin ölkələrimiz arasında əməkdaşlığın yüksək səviyyəsindən xəbər verdiyini vurğulayıb.

# Azərbaycan Fələstini dəstəkləyir

## Baş nazir dövlətimizin başçısına minnətdarlığını bildirib

Azərbaycan paytaxtı Şərqi Qüds olmaqla, müstəqil və suveren Fələstin dövlətinin yaradılmasını dəstəkləyir.

Bu fikirləri Prezident İlham Əliyev iyulun 16-da Fələstin Dövlətinin Baş naziri Məhəmməd Mustafanı qəbul edərkən səsləndirib.

Azərbaycanın Fələstinə göstərdiyi dəstəyə görə Baş nazir dövlətimizin başçısına minnətdarlığını bildirib. Söhbət zamanı Ramallah şəhərində Azərbaycanın Təmsilçilik Ofisinin açılması, Fələstinin ölkəmizdəki səfirliyinin xərclərinin isə Azərbaycan dövləti tərəfindən qarşılanması ikitərəfli əlaqələrimizin yüksək səviyyədə olmasının göstəricisi kimi dəyərləndirilib.

Görüşdə Fələstinin bəzi kənd təsərrüfatı məhsullarının ölkəmizə güzəştli şərtlərlə ixracı məsələsi müzakirə olunub, qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Polad iradə, sarsılmaz and

## Daxili Qoşunların gənc zabitləri Vətənə sədaqətlə xidmət edəcəklər

Ömründə bir dəfə də olsa hərbi uniforma geyinən insan onun bəxş etdiyi fərqli hissi dərhal duyur. Bu geyim həm də şərəfin, məsuliyyətin və Vətənə xidmət andının rəmzidir. Əsgər olanda insan bir xalqın ümidi və dayağı olmağın qürurunu yaşayır. Zabit rütbəsi daşıyanda isə həmin qürurla yanaşı çiyinlərində böyük məsuliyyət də hiss edirsən. Çünki bəzən bir zabitin verdiyi qərar və əmr bütöv bir hərbi əməliyyatın, müharibənin, hətta xalqın taleyinə təsir göstərə bilir.

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Hərbi İnstitutunu bitirən gənc zabitlər üçün də artıq bu şərəfli və məsuliyyətli xidmət dövrü başlayıb.

*(Ardı 2-ci səhifədə)*

# Narkotik cinayətlərinə qarşı barışmaz mövqe

## Bu mübarizə ictimai təhlükəsizliyin ayrılmaz hissəsidir

Müasir dövrdə narkotik vasitələrin qanunsuz dövriyyəsi çox ciddi təhlükələrdən sayılır. Çünki bu bəla bir nəfərin həyatını məhv etməklə kifayətlənmir, toplumun böyük kəsmini uçuruma sürükləyir. Ailələri dağıdır, cinayətkarlığı artırır və transmilli cinayətkar şəbəkələrin maliyyə mənbəyi rolunda çıxış edir.

Bu mənada mütəxəssislər narkotiklərlə mübarizəni milli təhlükəsizlik məsələsi hesab edirlər.

*(Ardı 2-ci səhifədə)*

# Yeni səfirlər gəlib

## Prezident səfirləri qəbul edib

Azərbaycan Prezidenti İlham Əliyev iyulun 17-də İrlandiyanın, Oman Sultanlığının, Kamboca Krallığının və Braziliya Federativ Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfirlərini qəbul edib.

Səfirlər etimadnamələrini dövlətimizin başçısına təqdim ediblər.

Səfirlərlə söhbət edən Prezident İlham Əliyev onların ikitərəfli münasibətlərin genişləndirilməsinə töhvə verəcəklərinə əminliyini bildirib.

**Yeni svetoforlar quraşdırılıb** 3



**Süni intellektlə şantaj** 3




**“Ponzi” piramidası: asan qazanc tələsi** 4



**Polisin yeni köməkçi vasitələri** 4



# Respublika Xəbərləri

### Çevik iş vaxtı tətbiq olunacaq

Azərbaycanda beynəlxalq təcrübə əsasında çevik iş vaxtı rejimi modellərinin yaradılması nəzərdə tutulur. Prezident İlham Əliyevin Sərəncamı ilə təsdiqlənmiş Tədbirlər Planına əsasən işçiyə ümumi iş vaxtı normasını saxlamaqla iş gününün başlanma və bitmə vaxtını sərbəst seçmək imkanı veriləcək.

### Cinayət-Prosessual Məcəlləsində dəyişiklik

İctimai təhlükə törətməyən aşkar cinayət üzrə məlumata baxılma müddəti artırılıb. Prezident İlham Əliyev bununla bağlı Cinayət-Prosessual Məcəlləsinə dəyişikliyi təsdiqləyib.

### "ASAN xidmət" Qarabağdadır

Azad olunmuş ərazilərdə - Ağdam, Cəbrayıl və Laçında növbəti "ASAN xidmət" mərkəzlərinin yaradılması planlaşdırılır. Şuşada artıq iki ildir "ASAN xidmət" mərkəzi fəaliyyət göstərir. Yaradılacaq yeni mərkəzlər regional mərkəzlər olacaq və ətraf rayonlara da xidmət göstərəcəklər.

### Azərbaycanda 6 ölkə hərbi təlim keçirəcək

Azərbaycanda təşkili nəzərdə tutulan "Birliyin Gücü – 2026" birgə hərbi təlimin planlaşdırma konfransı keçirilib. Konfransda Azərbaycanla yanaşı Türkiyə, İran, Qırğızıstan, Özbəkistan və Pakistanın nümayəndə heyətləri iştirak ediblər. Təlim ölkələrin orduları arasında əməkdaşlığın genişləndirilməsi, şəxsi heyətin praktiki vərdişlərinin təkmilləşdirilməsi, qarşılıqlı təcrübə mübadiləsi məqsədilə keçiriləcək.

### Xarici ticarətdə müsbət saldo

Bu ilin yanvar-iyun aylarında Azərbaycan xarici ölkələrlə 24 milyard 661 milyon ABŞ dolları dəyərində ticarət əməliyyatı aparıb. Bu, ötən ilin eyni dövrünə nisbətən 1,1 faiz çoxdur. Son 1 ildə ixrac 26,7 faiz artıb, idxal isə 27,6 faiz azalıb.Son nəticədə xarici ticarətdə 7 milyard 979 milyon dollarlıq müsbət saldo yaranıb. Bu da illik müqayisədə 5,9 dəfə çoxdur.

### Qarabağ minadan nə qədər təmizlənib?

İşğaldan azad edilmiş ərazilərdə indiyədək aparılan minatəmizləmə əməliyyatları nəticəsində 287 385 hektar təmizlənib, 255 200 (189 097 ədəd digər partlayıcı sursat, 42 235 ədəd piyada əleyhinə, 23 868 ədəd tank əleyhinə mina) mina və digər partlayıcı sursatlar aşkar edilərək zərərsizləşdirilib.

### Münaqişə qurbanları Vətənə qaytarılıb

Bir neçə gün əvvəl Suriya Ərəb Respublikasından 7-si qadın və 9-u uşaq olmaqla, ümumilikdə 16 nəfər Azərbaycan vətəndaşının ölkəmizə repatriasiyası həyata keçirilib. Bununla bağlı Xarici İşlər Nazirliyindən bildirilib ki, xarici ölkələrin ərazisində silahlı münaqişənin qurbanına çevrilmiş Azərbaycan vətəndaşlarının repatriasiyası üçün zəruri tədbirlər davam etdiriləcək.

### Əhalinin gəlirləri nə qədər artıb?

Azərbaycanda əhalinin gəlirləri artıb. Bu barədə Dövlət Statistika Komitəsindən bildirilib ki, cari ilin yanvar-iyun aylarında ölkə əhalisinin nominal gəlirləri ötən ilin eyni dövrü ilə müqayisədə 10,3 faiz artaraq 47 milyard 309 milyon manata çatıb. Hər nəfərə düşən ortaaylıq gəlir 767,9 manat olub. Əhalinin sərəncamında qalan gəlirləri isə 41 milyard 768,2 milyon manat təşkil edib.

### Motosiklet briqadası təcili tibbi yardım edəcək

Azərbaycanda ilk dəfə motosikletlər təcili tibbi yardım xidmətinə cəlb olunub. Bu xidmət modeli ilkin mərhələdə pilot olaraq Bakı şəhərində tətbiq olunacaq. Motosikletlər zəruri tibbi avadanlıq və ləvazimatlarla təchiz olunmuş, xüsusi hazırlıq keçmiş feldşer tərəfindən idarə olunur. Motosiklet briqadası hadisə yerində ürək-ağciyər reanimasiyası (BLS və ALS), ürəyin qapalı masajı, defibrilyasiya, ağrının aradan qaldırılması, sınıqlar zamanı immobilizasiya və digər təxirəsalınmaz tibbi müdaxilələri həyata keçirmək imkanına malikdir.

### Avtomobil istehsalı artıb

Hacıqabul Sənaye Parkında Özbəkistan şirkətləri ilə əməkdaşlıq çərçivəsində avtomobil istehsalı artıb. Bu günədək ümumilikdə 10 700-dən çox "Chevrolet" markalı avtomobil istehsal edilib. İstehsal olunan avtomobillər arasında "Labo", "Damas", "Malibu", "Lacetti", "Tracker", "Cobalt", "Nexia", "Spark", "Traverse", "Tahoe", "Equinox", "Onix" və "Captiva" modelləri yer alır. Bununla yanaşı, pikap, yük avtomobili və avtobuslar olmaqla 300-dən artıq "ISUZU" markalı nəqliyyat vasitəsi istehsal olunub.

# Polad iradə, sarsılmaz and

## Daxili Qoşunların gənc zabitləri Vətənə sədaqətlə xidmət edəcəklər





*(Əvvəli 1-ci səhifədə)*

2025–2026-cı tədris ilinin buraxılışı ilə Daxili Qoşunların sıralarını növbəti gənc zabitlər qoşuldu. İndi onların qarşısında nəzəri bilikləri real xidmət şəraitində tətbiq etmək, şəxsi heyətə rəhbərlik etmək və Vətənin təhlükəsizliyinin keşiyində dayanmaq kimi mühüm vəzifələr durur. Onlar müxtəlif hərbi hissələrdə xidmət edərək döyüş hazırlığının təşkilində, hərbi intizamın möhkəmləndirilməsində, xidməti və döyüş tapşırıqlarının yerinə yetirilməsində bilavasitə iştirak edəcəklər. Hərbi İnstitutda qazandıqları bilik və bacarıqlar gündəlik xidmətin sınağından keçəcək, peşəkarlıqları isə komandir keyfiyyətləri ilə qiymətləndiriləcək.

### ►Dəmir iradəli gənc zabitlər

Hərbi İnstituta qəbul olunan hər bir kursantın yüksək bilik səviyyəsi, fiziki hazırlığı, sağlamlığı, psixoloji dayanıqlığı və hərbi xidmətə yararlılığı gələcək zabit həyatının əsasını təşkil edir. Dörd il ərzində onlar hərbi idarəetmə, taktika, atəş hazırlığı, xüsusi hazırlıq, hüquq, liderlik və digər peşə fənləri üzrə kompleks hazırlıq keçirlər. Tədris auditoriyalarında əldə olunan biliklər poliqonlarda, taktiki təlimlərdə, hərbi toplanışlarda və praktiki məşqlərdə möhkəmləndirilir.



Burada gələcəyin zabitlərini çətin şəraitdə düzgün qərar verməyi bacaran, tabeliyindəki şəxsi heyətə nümunə olan, yüksək intizam və döyüş ruhu formalaşdıran komandirlər kimi yetişdirirlər. Dövlətə sədaqət, hərbi anda bağlılıq, Vətən sevgisi və şəxsi məsuliyyət hissi tədris prosesinin mənəvi-psixoloji hissəsini təşkil edir. Məhz bu dəyərlər Hərbi İnstitutun kursantlarını Vətənin müdafiəsində etibarlı polad sipərə çevirir.

### ►Hərbçilərimiz şücaətləri ilə qəhrəmanlıq salnaməsi yazdılar

Bu dəyərlərin möhkəm təməl üzərində qurulduğunu Azərbaycan xalqı Vətən müharibəsində bir daha gördü. Daxili Qoşunların şəxsi heyəti döyüş tapşırıqlarını yüksək peşəkarlıq və fədakarlıqla yerinə yetirdi. İşğaldan azad olunmuş ərazilərdə ictimai asayişin və təhlükəsizliyin təmin edilməsində, strateji obyektlərin mühafizəsində, eləcə də lokal antiterror tədbirlərində daxili qoşunların hərbi qulluqçuları ön sıralarda xidmət göstərdilər. Bu şərəfli döyüş yolu Daxili Qoşunların yüksək hazırlığını, peşəkarlığını və müasir çağırışlara cavab vermək qabiliyyətini növbəti dəfə nümayiş etdirdi. Bu salnamənin ən ağrılı, eyni zamanda ən qürurverici səhifələrini isə canlarını Vətən uğrunda fəda edən şəhidlər yazdılar. Onların sırasında zabitlərin də olması Azərbaycan komandirlərinin döyüş fəlsəfəsinin ən parlaq nümunəsidir.

Ən çətin döyüş istiqamətlərində şəxsi heyətə birlikdə irəliləddilər, öz nümunələri ilə döyüş ruhu yaratdılar və son nəfəsədək hərbi anda sadiq qaldılar. Bu gün Hərbi İnstitutu bitirən gənc leytenantlar da məhz həmin qəhrəmanlıq məktəbinin davamçılarıdır. Çünki, qeyd etdiyimiz kimi, onlara ilk gündən bu dəyərlər aşılanır.

### ►Azərbaycana sədaqətlə xidmət etmək vəzifəsi…

Daxili İşlər Nazirliyinin xüsusi təyinatlı təhsil müəssisələrində peşəkar və vətənpərvər zabit kadrlarının hazırlanması dövlətin prioritet istiqamətlərindən biridir. Bunun üçün daxili işlər orqanlarında gənclərin xidmətə təşviq edilməsi ilə bağlı görülən tədbirlər səmərəli nəticələr verir.

Bu gün xidmətə başlayan leytenantlar vaxtilə hərbi peşəni seçən məktəbli olublar. Daxili İşlər Nazirliyinin əməkdaşlarının respublikanın şəhər və rayonlarında keçirdikləri maarifləndirici görüşlər, hərbi peşənin təbliği istiqamətində həyata keçirilən tədbirlər minlərlə gəncin seçimində mühüm rol oynayıb. Hərbi İnstitut haqqında verilən ətraflı məlumatlar, xidmət perspektivləri və zabit şərəfi bir çox gəncin gələcək həyat yolunu müəyyənləşdirib. İndi isə həmin gənclərin qarşısında ən məsuliyyətli – Azərbaycana sədaqətlə xidmət etmək missiyası dayanır.

Vətən müharibəsinin qəhrəmanları, antiterror tədbirlərində şücaət göstərən komandirlər və Vətən uğrunda canından keçən şəhidlər bu yolun ən layiqli örnəkləridir. Zabit olmaq onlar kimi həm də Vətən qarşısında məsuliyyət daşımaq, hərbi anda ömrünün sonunadək sadiq qalmaq və xalqın etimadını daim doğrultmaq deməkdir.

***R.Mehtiyev***

# Narkotik cinayətlərinə qarşı barışmaz mövqe

## Bu mübarizə ictimai təhlükəsizliyin ayrılmaz hissəsidir

***İkinci Qarabağ müharibəsi, həmçinin antiterror tədbirlərindən sonra azad edilmiş ərazilərdə narkotik plantasiyaları aşkar edildi. Bununla da beynəlxalq narkotrafikin bu ərazilərdən keçən marşrutunun qarşısı alındı.***

*(Əvvəli 1-ci səhifədə)*

Azərbaycanda bu sahədə həyata keçirilən tədbirlərin miqyasını ildən-ilə genişləndirən Daxili İşlər Nazirliyinin əməkdaşlarının keçirdiyi əməliyyatlar ardıcıl xarakter daşıyır. Demək olar ki, hər həftə qanunsuz dövriyyədən çıxarılan narkotik vasitələr, ifşa olunan cinayətkar qruplar və saxlanılan şəxslərlə bağlı məlumatlar ictimaiyyətə təqdim edilir.

DİN-in son Kollegiya iclasında səsləndirilən statistik göstəricilər də bu istiqamətdə son aylar ərzində görülən işlərin həcmini aydın şəkildə ortaya qoydu. Bəlli oldu ki, bu ilin 6 ayı ərzində qanunsuz dövriyyədən ötən ilin müvafiq dövrü ilə müqayisədə 1 ton 360 kiloqram çox olmaqla ümumilikdə 4 ton 318 kiloqram narkotik vasitə çıxarılıb. 254 tondan artıq çətənə və xaş-xaş kolu aşkarlanaraq məhv edilib, 41 mütəşəkkil cinayətkar qrup zərərsizləşdirilib, 2.652 nəfər cinayət məsuliyyətinə cəlb olunub.

Bu rəqəmlər ilk baxışdan statistika kimi görünür, əslində isə onun arxasında xilas edilən minlərlə insan taleyi dayanır. Dövriyyədən çıxarılan hər qram narkotik bir insanın həyatını puç edəcək təhlükənin qarşısını alıb, hansısa ailəni ağır faciələrlə üzləşməkdən xilas edib.

Təbii ki, əməliyyat tədbirləri ilə yanaşı maarifləndirmə işinin davam etdirilməsi də diqqət çəkən məqamlardandır. Hazırda tətil dönəmi olsa da, həmil bütün tədris boyu məktəblərdə, ali təhsil müəssisələrində, müxtəlif əmək kollektivlərində keçirilən görüşlər gənclərin narkomaniyanın doğurduğu təhlükələr barədə məlumatlandırılmasını təmin edib. Deməli, hüquqi məsuliyyətin sərtliyi ilə profilaktik tədbirlərin vəhdəti bu mübarizənin təsir imkanlarını daha da artırıb.

Aydın məsələdir ki, narkoticarət dünyanın heç bir yerində ayrı fəaliyyət göstərmir. Onun yolları terrorçuluq, insan alveri, qanunsuz silah ticarəti və digər ağır cinayətlərlə kəsişir. Azərbaycan da uzun illər bu reallıqla üzləşib. Qarabağın işğal altında qaldığı dövrdə həmin ərazilər beynəlxalq hüququn işləmədiyi boz zona sayılırdı. Rəsmi Bakı müxtəlif beynəlxalq təşkilatlar qarşısında dəfələrlə bəyan edirdi ki, işğal olunmuş torpaqlarda narkotik tərkibli bitkilər becərilir, həmin ərazilər narkotik vasitələrin tranziti üçün istifadə olunur, insan alveri və terrorçu qrupların fəaliyyəti geniş vüsət alır. Aparılan əməliyyat tədbirləri nəticəsində əldə edilən məlumatlar da göstərirdi ki, qanunsuz dövriyyədən çıxarılan narkotik vasitələrin müəyyən hissəsi məhz işğal altında olan ərazilərdə yetişdirilib. Bu faktlar uzun müddət beynəlxalq ictimaiyyət tərəfindən lazımi səviyyədə qiymətləndirilmədi. Lakin sonrakı hadisələr Azərbaycanın mövqeyini tam təsdiqlədi. İkinci Qarabağ müharibəsi zamanı azad olunan ərazilərdə erməni silahlı birləşmələrinin istifadə etdiyi narkotik vasitələrin aşkarlanması diqqətdən yayınmadı. Antiterror tədbirlərindən sonra isə geniş ərazilərdə narkotik plantasiyalarının üzə çıxması illərlə səsləndirilən faktların real mənzərəsini ortaya qoydu. Buna görə azad edilmiş ərazilərdə daxili işlər orqanlarının ilk əməliyyatlarından biri narkotik plantasiyalarının aşkar edilərək məhv olunması idi və həmin mənbələrin sıradan çıxarılması transmilli cinayətkar şəbəkələrin iqtisadi dayaqlarına ağır zərbə vurdu.

Bu gün Azərbaycan narkotiklə mübarizəni yalnız ölkə sərhədləri daxilində davam etdirmir. Müxtəlif dövlətlərin hüquq-mühafizə orqanları ilə əməkdaşlıq genişlənir, informasiya mübadiləsi aparılır, birgə əməliyyatlar həyata keçirilir. Bu transmilli cinayətkarlıq sərhəd tanımadığına görə ona qarşı mübarizədə də beynəlxalq imkanlardan istifadə olunur.

Narkomaniya ilə mübarizədə cəmiyyətin üzərinə düşən məsuliyyət isə dəyişməz qalır. Valideynin övladına ayırdığı vaxt, müəllimin diqqəti, gənclərin sağlam həyat tərzinə istiqamətləndirilməsi polisin, digər hüquq-mühafizə orqanlarının fəaliyyətini tamamlayan əsas amillərdir. Polis cinayətkarı zərərsizləşdirə, təhdidləri önləyə bilər, gəncin bu təhlükəli yola düşməsinin qarşısını isə ilk növbədə ailəsi almalıdır.

# 151 illik Azərbaycan mətbuatı

## Milli mətbuatın ənənələri bu gün də uğurla davam etdirilir

Azərbaycan milli mətbuatının əsası 1875-ci il iyulun 22-də böyük maarifçi Həsən bəy Zərdabinin nəşr etdirdiyi "Əkinçi" qəzeti ilə qoyulub. Xalqın maariflənməsinə, milli özünüdərkin formalaşmasına xidmət edən bu nəşr sonrakı dövrlərdə Azərbaycan jurnalistikasının inkişafı üçün möhkəm zəmin yaradıb.

### ►Şuşadan dünyaya media mesajı

İşğaldan azad olunmuş Şuşa şəhəri artıq beynəlxalq media dialoqunun mühüm platformalarından birinə çevrilib. Bir neçə gün əvvəl keçirilən IV Şuşa Qlobal Media Forumunda Prezident İlham Əliyev müasir dövrdə medianın üzərinə düşən məsuliyyətdən bəhs edərək vurğulayıb ki, informasiya müharibələrinin geniş vüsət aldığı şəraitdə jurnalistikanın əsas missiyası həqiqəti qorumaq, cəmiyyətə obyektiv və faktlara əsaslanan məlumat çatdırmaqdır. Dövlət başçısı bildirib ki, peşəkar media dezinformasiyaya qarşı mübarizədə, ictimai etimadın möhkəmləndirilməsində və sülhün təşviqində mühüm rol oynayır.

### ►Daxili İşlər Nazirliyinin media ənənələri

Azərbaycan polisinin fəaliyyəti barədə cəmiyyətin operativ və düzgün məlumatlandırılması Daxili İşlər Nazirliyinin informasiya siyasətinin əsas istiqamətlərindən biridir. Bu sahədə Nazirliyin Mətbuat Xidməti uzun illərdir ictimaiyyətlə dövlət qurumu arasında etibarlı informasiya körpüsü rolunu uğurla yerinə yetirir. DİN-in Mətbuat Xidmətinin fəaliyyətində xüsusi yer tutan "Polis" qəzeti 1933-cü ildən nəşr olunur və ölkənin ən uzunömürlü sahəvi nəşrlərindən biri kimi polis əməkdaşlarının fəaliyyəti, ictimai təhlükəsizliyin qorunması, hüquqi maarifləndirmə və polis-vətəndaş münasibətlərində qarşılıqlı etimadın möhkəmləndirilməsi istiqamətində mühüm missiyasını bu gün də davam etdirir. 1992-ci ildən fəaliyyət göstərən DİN Daxili Qoşunlarının "Əsgər" qəzeti isə hərbi-vətənpərvərlik ruhunun aşılanması, şəxsi heyətin xidməti fəaliyyətinin işıqlandırılması, milli-mənəvi dəyərlərin təbliği və şəxsi heyətin maarifləndirilməsi baxımından əhəmiyyətli rol oynayır. Hər iki nəşr daxili işlər orqanlarının zəngin tarixini, xidmət ənənələrini və dövlətçilik dəyərlərini oxuculara çatdırmaqla etibarlı informasiya mənbələri kimi çıxış edirlər.

### ►DİN sosial şəbəkələrdə

Məlum olduğu kimi, müasir dövrdə informasiya mühitinin əsas hissəsi rəqəmsal platformalara keçib. Daxili İşlər Nazirliyi də müasir çağırışlara uyğun olaraq sosial media platformalarında fəal iştirak etməklə cəmiyyətlə açıq və davamlı kommunikasiya modelini uğurla tətbiq edir. DİN-in rəsmi "Facebook", "Instagram", "X", "Telegram" və "YouTube" hesabları vasitəsilə hər gün vətəndaşlara operativ məlumatlar təqdim olunur. Cinayətlərin açılması, axtarışda olan şəxslərin saxlanılması, narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı keçirilən əməliyyatlar, kibercinayətkarlıqla mübarizə, yol hərəkəti təhlükəsizliyi, ictimai asayişin qorunması və digər istiqamətlər üzrə məlumatlar qısa müddətdə geniş auditoriyaya çatdırılır. Bununla yanaşı, cəmiyyətdə narahatlıq doğuran hadisələrlə bağlı rəsmi açıqlamalar verilərək yanlış məlumatların və dezinformasiyanın yayılmasının qarşısı alınır. Bu sosial media platformaları DİN üçün təkcə məlumat yaymaq vasitəsi deyil, həm də vətəndaşlarla qarşılıqlı əlaqənin mühüm elementidir. Paylaşımlara edilən müraciətlər, suallar və təkliflər diqqətlə araşdırılır, ictimai maraq doğuran məsələlərə operativ münasibət bildirilir. Bu yanaşma polis-vətəndaş münasibətlərinin daha da möhkəmlənməsinə, şəffaflığın artırılmasına və ictimai etimadın gücləndirilməsinə xidmət edir.

DİN-in sosial şəbəkələrdə həyata keçirdiyi maarifləndirici layihələr də geniş maraq doğurur. Xüsusilə kiberdələduzluq, fişinq hücumları, bank kartı məlumatlarının qorunması, sosial mühəndislik üsulları, süni intellekt vasitəsilə hazırlanan saxta görüntülər, narkotik vasitələrin zərərləri, məişət zorakılığı, uşaq təhlükəsizliyi və yol hərəkəti qaydalarına dair hazırlanan videoçarxlar və infoqrafikalar vətəndaşların hüquqi maariflənməsinə mühüm töhfə verir.

Nazirliyin sosial media strategiyasında video məzmun xüsusi yer tutur. Əməliyyat görüntüləri, polis əməkdaşlarının xidməti fəaliyyəti, profilaktik tədbirlər, beynəlxalq əməkdaşlıq, müxtəlif sosial layihələr və əlamətdar günlərlə bağlı hazırlanmış videolar geniş izləyici auditoriyası toplayır. Sosial şəbəkələr vasitəsilə həyata keçirilən çağırışlar və xəbərdarlıqlar bir çox hallarda hüquqpozmaların qarşısının alınmasına da xidmət edir.

Müasir media mühitində DİN-in sosial şəbəkələrdəki fəallığı, həm də cəmiyyətlə açıq dialoqun, hüquqi maarifləndirmənin və ictimai təhlükəsizliyin təmin edilməsinə xidmət edən mühüm kommunikasiya platformasıdır.

### ►Milli mətbuat əsas missiyasına sadiqdir

151 illik şərəfli inkişaf yolu keçən Azərbaycan milli mətbuatı bu gün də öz əsas missiyasına – həqiqətin müdafiəsinə, cəmiyyətin obyektiv məlumatlandırılmasına və milli maraqların qorunmasına sadiqdir. "Əkinçi" ilə təməli qoyulan milli mətbuat ənənələri müasir informasiya texnologiyaları, peşəkar jurnalistika və dövlət-media əməkdaşlığı fonunda uğurla inkişaf etdirilir.

*F.Məmmədova*

# İstirahətə gedərkən evimizi necə qorumalıyıq?

## Evimizin təhlükəsizliyini əvvəlcədən təmin edək

Yay mövsümünün gəlişi ilə insanlar istirahət üçün rayonlara və ya xarici ölkələrə üz tuturlar. Tətil planı hazırlanarkən isə bəzən vacib bir məsələ diqqətdən kənarda qalır: evimizin təhlükəsizliyi.

Mənzil oğurluqlarının əhəmiyyətli hissəsi məhz ev sahiblərinin uzun müddət evdə olmamasından istifadə edilməklə törədilir. Belə cinayətləri törədən şəxslər adətən təsadüfi hərəkət etmirlər. Onlar əvvəlcədən yaşayış binalarını və həyətləri müşahidə edir, ev sahiblərinin gediş-gəlişini izləyir və yalnız bundan sonra oğurluq etməyə cəhd göstərirlər. Buna görə də istirahətə yollanmamışdan əvvəl evinizin təhlükəsizliyi üçün bir neçə sadə, lakin vacib tədbir görmək tövsiyə olunur.



### *Oğurluq riskini azaltmaq üçün nələrə diqqət edilməlidir?*

İlk növbədə qapı və pəncərələrin etibarlı şəkildə bağlandığına əmin olun. Tələskənlik səbəbindən edilən kiçik bir səhlənkarlıq belə oğrular üçün əlverişli şərait yarada bilər.

Ən çox rast gəlinən səhvlərdən biri ehtiyat açarın qapının altına, elektrik və ya qaz sayğacının qutusuna, gül dibçəyinə və ya digər asan tapılan yerlərə qoyulmasıdır. Halbuki bu məkanlar oğruların ilk yoxladıqları yerlər sırasındadır. Son illərdə qeydə alınan bəzi oğurluq hadisələri də məhz bu cür ehtiyatsızlıq nəticəsində baş verib. Ehtiyat açarı yalnız etibar etdiyiniz bir yaxınınıza verməyiniz daha təhlükəsiz seçimdir.

Əgər bir neçə gün və ya daha uzun müddət evdə olmayacaqsınızsa, etibar etdiyiniz qohumunuzdan və ya qonşunuzdan müəyyən aralıqlarla evə baş çəkməsini xahiş edə bilərsiniz. Onun pəncərələri açıb-bağlaması və ya axşam saatlarında işıq yandırması mənzildə insanların olduğu təəssüratı yarada bilər.

Sosial şəbəkələrdən istifadə edərkən də ehtiyatlı olmaq vacibdir. Tətilə çıxan kimi "10 gün şəhərdə olmayacağıq" və ya "hazırda xaricdəyik" kimi paylaşımlar etmək evinizin boş olduğunu potensial cinayətkarların diqqətinə çatdıra bilər. Səfərlə bağlı foto və videoları evə qayıtdıqdan sonra paylaşmaq daha təhlükəsizdir.

Qiymətli əşyaları və vacib sənədləri açıq görünən yerlərdə saxlamaq məqsədəuyğun deyil. İmkan olduqda onları seyfdə və ya digər etibarlı mühafizə yerində saxlamaq tövsiyə edilir.

Müşahidə kameraları, hərəkət sensorları, siqnalizasiya sistemləri və ağıllı işıqlandırma qurğuları da evin təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır. Bu vasitələr oğurluq riskini azaltmaqla yanaşı, ev sahibinə mənzilini uzaq məsafədən izləmək imkanı da yaradır.

### *DİN-in Baş Mühafizə İdarəsi*

Polis əməkdaşları mənzil oğurluqlarının qarşısının alınması və baş vermiş cinayətlərin qısa müddətdə açılması istiqamətində mütəmadi profilaktik və əməliyyat-axtarış tədbirləri həyata keçirir. Daxil olan məlumatlar əsasında operativ tədbirlər görülür, eyni zamanda vətəndaşların maarifləndirilməsinə xüsusi diqqət yetirilir. Çünki əmlakın qorunması yalnız hüquq-mühafizə orqanlarının deyil, hər bir vətəndaşın məsuliyyətli davranışından da asılıdır. Bu sahədə vətəndaşların etibarlı tərəfdaşlarından biri Daxili İşlər Nazirliyinin Baş Mühafizə İdarəsidir. Baş İdarə mənzillərin, fərdi yaşayış evlərinin, ofislərin, müxtəlif təyinatlı obyektlərin və digər əmlakın müasir texniki mühafizə vasitələri ilə qorunmasını təmin edir. Quraşdırılmış siqnalizasiya sistemləri sutka ərzində fasiləsiz nəzarətdə saxlanılır. Mənzilə qanunsuz daxilolma cəhdi və ya siqnalın işə düşməsi halında məlumat dərhal növbətçi hissəyə ötürülür və polis əməkdaşları qısa müddətdə hadisə yerinə göndərilir.

Baş Mühafizə İdarəsinin xidmətindən istifadə edən vətəndaşlar istirahətdə, ezamiyyətdə və ya ölkə xaricində olduqları müddətdə də əmlaklarının peşəkar nəzarət altında olduğuna əmin ola bilirlər. Bu isə həm oğurluq riskini minimuma endirir, həm də insanların istirahətlərini daha rahat və təhlükəsiz keçirməsinə imkan yaradır.

*Fidan Məmmədova*

# Yeni svetoforlar quraşdırılıb

## Piyadaların təhlükəsizliyi təmin olunur




Yol hərəkəti iştirakçılarının təhlükəsizliyinin artırılması məqsədilə paytaxtın Nərimanov və Sabunçu rayonlarında mövcud svetofor infrastrukturu təkmilləşdirilib.

DİN-in Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzi tərəfindən həyata keçirilən işlər çərçivəsində Atatürk və Ayna Sultanova parkları arasında piyadaların daha təhlükəsiz hərəkətini təmin etmək üçün 2 yeni piyada dirəyi, 2 piyada svetoforu və mövcud dirəklərə 2 yeni piyada bölməsi quraşdırılıb.

Zabrat-Kürdəxanı şosesi ilə Eldar Xəlilov küçəsinin kəsişməsində isə 1 ədəd "A" tipli svetofor dirəyi "L" tipli dirəklə əvəzlənib, 2 yeni piyada svetoforu, 4 piyada bölməsi və görmə məhdudiyyətli şəxslərin təhlükəsiz keçidini təmin etmək məqsədilə 4 səsli xəbərdarlıq qurğusu quraşdırılıb.

# Süni intellektlə şantaj

## İki nəfər şübhəli şəxs qismində saxlanılıb

Daxili İşlər Nazirliyi Kibercinayətkarlıqla Mübarizə Baş İdarəsinə (KMBİ) naməlum şəxslərin qadınların sosial şəbəkələrdə paylaşdıqları fotoşəkilləri süni intellekt proqramlarından istifadə edərək üzərinə nalayiq ifadələr yazdıqları, həmin görüntüləri müxtəlif sosial media platformalarında yaydıqları və bu görüntülərin silinməsi müqabilində zərərçəkənlərdən pul tələb etdikləri barədə məlumatlar daxil olub.

Kiberpolisin həyata keçirdiyi əməliyyat-texniki tədbirlərlə qeyd olunan əməlləri törətməkdə şübhəli bilinən 31 yaşlı L.Cəbizadə və 20 yaşlı E.Məmmədov saxlanılıblar. Araşdırmalarla müəyyən edilib ki, həmin şəxslər "TikTok", "Instagram" və "Telegram" sosial şəbəkələrindən qadınlara məxsus fotoları götürərək süni intellekt proqramları vasitəsilə montaj edib, üzərinə təhqiramiz məzmunlu informasiyalar əlavə ediblər. Daha sonra saxta hesablar vasitəsilə bu görüntüləri sosial şəbəkələrdə yayımlayıb silinməsi müqabilində zərərçəkənlərdən müxtəlif məbləğlərdə pul tələb ediblər.

Faktlarla bağlı Baş İdarədə cinayət işi başlanılıb, hər iki şəxs cinayət məsuliyyətinə cəlb olunub.

# Şuşada "Xaş-xaş" əməliyyatı

## Bir ton çətənə kolu məhv edilib



Şuşa Rayon Polis Şöbəsinin əməkdaşlarının keçirdikləri "Xaş-xaş-2026" şərti adlı kompleks tədbirlər nəticəsində Xəlfəli kəndi ərazisində yabanı halda bitən narkotik tərkibli bitkilər aşkar edilib.

Ümumi çəkisi 1 ton olan 2010 ədəd çətənə kolu məhv edilib.

# Keçmiş məhkumun yeni əməli

## Polis onun gizli talama cinayətlərinin üstünü açıb

Lənkəran rayonu ərazisində yerləşən evlərdən oğurluqlar edilib. Naməlum şəxs 4 fərdi yaşayış evi və 1 şadlıq sarayından ümumi dəyəri 13 min manatdan artıq olan qızıl-zinət əşyaları və məişət avadanlıqlarını talayıb. Lənkəran Şəhər Rayon Polis Şöbəsinin əməkdaşlarının keçirdikləri tədbirlərlə qeyd olunan əməlləri törətməkdə şübhəli bilinən, əvvəllər məhkum olunmuş 44 yaşlı Ç.İbrahimov müəyyən edilərək saxlanılıb.

Faktlarla bağlı cinayət işi başlanılıb. Məhkəmənin qərarı ilə Ç.İbrahimov barəsində həbs qətimkan tədbiri seçilib. Araşdırmalar davam etdirilir.

# “Ponzi” piramidası: asan qazanc tələsi

## Maliyyə dələduzluğunun görünməyən üzü

**Müasir dövrdə internet və rəqəmsal maliyyə alətlərinin sürətlə inkişafı investisiya imkanlarını genişləndirsə də, eyni zamanda yeni dələduzluq üsullarının meydana çıxmasına da şərait yaradıb. Son illərdə müxtəlif ölkələrdə minlərlə insanın böyük məbləğdə vəsait itirməsinə səbəb olan “Ponzi” piramidası da məhz belə maliyyə fırıldaqlarından biridir. İlk baxışdan yüksək gəlir vəd edən cəlbedici investisiya layihəsi təsiri bağışlayan bu sxem əslində heç bir real iqtisadi fəaliyyətə əsaslanmır. Sistemin fəaliyyəti yalnız yeni qoşulan iştirakçıların yatırdığı vəsait hesabına əvvəlki iştirakçılara ödəniş edilməsinə söykənir. İnsan axını dayandıqda isə piramida çökür və vəsaitini yatıran şəxslər ciddi maddi ziyanla üzləşirlər.**



### ►“Ponzi” sxemi necə işləyir?

“Ponzi” sxemi adını XX əsrin əvvəllərində ABŞ-da fəaliyyət göstərmiş Çarlz Ponzidən alıb. O, investorlara qısa müddətdə yüksək gəlir vəd edir, lakin həmin gəliri real biznes fəaliyyətindən deyil, sonradan qoşulan insanların vəsaiti hesabına ödəyirdi. Bu model uzunmüddətli fəaliyyət göstərə bilməz. Çünki sistemin yaşaması üçün daim yeni iştirakçıların cəlb edilməsi tələb olunur. Yeni vəsait daxil olmadıqda ödənişlər dayanır, təşkilatçılar isə əksər hallarda toplanmış pulla yoxa çıxırlar. Sonralar bu model bütün dünyada “Ponzi sxemi” kimi tanınmağa başladı.

### ►Tarixin ən böyük maliyyə fırıldaqları

2008-ci ildə ABŞ-da ifşa olunan Bernie Madoff işi “Ponzi” sxeminin ən böyük nümunəsi hesab edilir. Uzun illər etibarlı investisiya şirkəti görüntüsü yaradan B.Madoff minlərlə investorun vəsaitini cəlb etmişdi. Araşdırmalar nəticəsində məlum oldu ki, investorların qazancı real investisiyalardan deyil, yeni iştirakçıların yatırdığı pullar hesabına ödənilib. Sxem ifşa edildikdən sonra milyardlarla dollarlıq zərər ortaya çıxdı və təşkilatçı uzunmüddətli həbs cəzasına məhkum edildi.

“Ponzi” sxemləri təkcə ABŞ və ya Avropa ölkələrində deyil, dünyanın müxtəlif regionlarında da geniş yayılıb. Rusiyada fəaliyyət göstərən “MMM” maliyyə piramidası milyonlarla insanı cəlb etmiş, sistem çökdükdən sonra iştirakçıların əksəriyyəti bütün yığımlarını itirmişdi. Braziliya və ABŞ-da fəaliyyət göstərən “TelexFree”, Böyük Britaniyada ifşa olunan “London Capital & Finance” işi də oxşar prinsiplə qurulmuş maliyyə dələduzluqları kimi tarixə düşüb.

### ►“Ponzi” sxemini necə tanımaq olar?

“Ponzi” sxemlərini müəyyən etməyə kömək edən bir sıra xarakterik əlamətlər mövcuddur. Bunlara qısa müddətdə yüksək və risksiz gəlir vədləri, investisiyanın necə işlədiyinin aydın izah edilməməsi, iştirakçıların yeni investorlar cəlb etməyə həvəsləndirilməsi, şirkətin maliyyə fəaliyyəti barədə şəffaf məlumat verməməsi və vəsaitin geri qaytarılması zamanı müxtəlif bəhanələrin irəli sürülməsi daxildir. Əgər hansısa platforma bazar şəraitindən asılı olmayaraq daimi və yüksək qazanc vəd edirsə, bu, ciddi şübhə doğurmalıdır. Maliyyə bazarlarında yüksək gəlir həmişə müəyyən risklə müşayiət olunur. Risksiz və yüksək gəlir barədə verilən vədlər isə əksər hallarda reallığı əks etdirmir və dələduzluq əlaməti hesab edilir.

Əvvəllər belə sxemlər əsasən şəxsi görüşlər vasitəsilə yayılırdısa, hazırda sosial şəbəkələr, mesencer tətbiqləri və müxtəlif internet platformaları onların əsas təbliğat vasitəsinə çevrilib. Bahalı avtomobillər, lüks həyat tərzi, saxta uğur hekayələri və tanınmış şəxslərin görüntülərindən istifadə etməklə insanlarda etibar formalaşdırmağa çalışılır. Bəzi hallarda süni intellekt vasitəsilə hazırlanmış saxta videolar və manipulyasiya edilmiş görüntülərdən də istifadə olunur. Bu isə vətəndaşların aldadılma riskini daha da artırır.

### ►Özünüzü necə qorumalısınız?

İnvestisiya qərarı verməzdən əvvəl platformanın hüquqi statusunu, fəaliyyəti barədə məlumatları və lisenziyasını diqqətlə araşdırmaq tövsiyə edilir. Təklif olunan gəlirin real olub-olmadığını qiymətləndirmək, müstəqil mənbələrdən məlumat toplamaq və emosional qərarlardan çəkinmək vacibdir. Heç vaxt yalnız tanışların tövsiyəsinə, sosial şəbəkələrdə yayılan reklamlara və ya qısa müddətdə varlanmaq vədlərinə əsaslanaraq vəsait yatırmaq olmaz.

### ►Ayıq-sayıqlıq ən etibarlı müdafiədir

“Ponzi” piramidaları uzun illərdir müxtəlif formalarda mövcud olsa da, onların iş prinsipi dəyişməyib. Qlobal təcrübə göstərir ki, bu sxemlər yalnız maliyyə savadlılığının zəif olduğu mühitdə deyil, inkişaf etmiş ölkələrdə də minlərlə insanı aldada bilir. Dələduzlar insanların daha çox qazanmaq istəyindən və sosial şəbəkələrdə yaradılan saxta etibardan istifadə edirlər. Hüquq-mühafizə orqanları və maliyyə tənzimləyiciləri vətəndaşlara investisiya qərarı verməzdən əvvəl şirkətin hüquqi statusunu, fəaliyyət tarixçəsini və lisenziyasını yoxlamağı, şübhəli yüksək gəlir vədlərinə tənqidi yanaşmağı tövsiyə edirlər. Tarix dəfələrlə sübut edib ki, “Ponzi” sxemləri müxtəlif adlarla meydana çıxsa da, onların sonu dəyişmir. Yeni iştirakçıların axını dayandıqda maliyyə piramidası çökür, ən böyük zərəri isə asan qazanc ümidi ilə vəsait yatıran insanlar görür. Buna görə də maliyyə təhlükəsizliyinin ən etibarlı təminatı ayıq-sayıqlıq, məlumatlılıq və hər bir investisiya təklifinə tənqidi yanaşmaqdır.

# Zirehli gödəkçələr süni intellektlə təchiz olunub

## Polis əməkdaşlarının təhlükəsizliyi daha da güclənəcək




Fransada polis və jandarm əməkdaşlarının təhlükəsizliyini artırmaq məqsədilə süni intellekt texnologiyaları ilə təchiz edilən taktiki-zirehli gödəkçələrdən istifadə olunmağa başlanılıb.

Fransanın Milli Jandarm Baş İdarəsi ilə müvafiq şirkətin birgə hazırladığı innovativ sistem fövqəladə halları avtomatik müəyyən edərək komanda mərkəzinə dərhal xəbərdarlıq göndərir. Zirehli gödəkçəyə inteqrasiya olunan xüsusi elektron modul əməkdaş tərəfindən SOS düyməsi vasitəsilə aktivləşdirilə bildiyi kimi, yıxılma, bıçaq zərbəsi nəticəsində qoruyucu qatın deşilməsi və ya güllə yaralanması kimi halları da avtomatik aşkar edir. Təhlükə müəyyən edildiyi anda sistem həyəcan siqnalını və əməkdaşın dəqiq koordinatlarını komanda mərkəzinə ötürür. Bu da rəhbərliyə əməliyyat zonasındakı vəziyyəti izləməyə, qüvvələri daha operativ yönləndirməyə və çevik qərarlar qəbul etməyə imkan verir.

Ağıllı zirehli gödəkçə səkkiz saata qədər fasiləsiz işləyə bilən mərkəzi batareya ilə təchiz olunub. Gödəkçənin ön və arxa hissəsində yerləşdirilən işıqsaçan liflər isə gecə əməliyyatları zamanı əməkdaşları daha yaxşı görünməsini təmin edir. Sensorlardan, xəbərdarlıq qurğularından və rabitə vasitələrindən daxil olan məlumatlar vahid platformada birləşdirilərək komanda mərkəzinə ötürülür.

Beləliklə, Fransada zirehli gödəkçələr artıq yalnız güllə və bıçaq zərbələrindən qoruyan fərdi mühafizə vasitəsi deyil. O, eyni zamanda təhlükəni avtomatik aşkarlayan, əməkdaşın yerini dəqiq müəyyənləşdirən və hadisə barədə komanda mərkəzini anında məlumatlandıran ağıllı taktiki avadanlığa çevrilib.

# Polisin yeni köməkçi vasitələri

## Norveçdə dronlar hadisə yerinə polisdən əvvəl çatacaq



Norveç polisi hadisələrə operativ müdaxilədə yeni mərhələyə qədəm qoyub. Ölkədə dronlardan “ilk müdaxilə” vasitəsi kimi istifadəyə başlanılıb. Layihənin əsas məqsədi polis əməkdaşları hadisə yerinə çatana qədər ərazidə baş verənlər barədə operativ və dəqiq məlumat əldə etməkdir. Yeni sistem çərçivəsində dronlar xüsusi avtomatlaşdırılmış anqarlarda saxlanılır. Hadisə barədə məlumat daxil olduqda və dronun istifadəsinə ehtiyac yarandıqda, cihaz bir neçə saniyə ərzində avtomatik şəkildə havaya qalxır. Bunun sayəsində polis əməkdaşları hadisə yerinə çatmamış ərazinin görüntüsünü əldə edir, vəziyyəti qiymətləndirir, hansı qüvvə və vasitələrin cəlb olunmasının daha məqsədəuyğun olduğunu müəyyənləşdirirlər.

Dronların topladığı görüntü, video məlumatlar polisin əməliyyat mərkəzinə və hadisə yerinə hərəkət edən patrul heyətinə ötürülür. Bu xüsusilə vəziyyətin tam aydın olmadığı, təhlükə riskinin yüksək qiymətləndirildiyi hadisələrdə mühüm üstünlük yaradır.

Bəzi hallarda əməkdaşları birbaşa riskli əraziyə göndərmək əvəzinə, əvvəlcə dron vasitəsilə vəziyyət qiymətləndirilir. Bu isə həm təhlükəsizliyi artırır, həm də qərar qəbul etmə müddətini sürətləndirir.

# Torpaqda qalan iz...

## Bəzən bir ayaqqabı izi mühüm sübuta çevrilir



Cinayət yerində qalan qan izi, barmaq izi və ya DNT nümunələri haqqında tez-tez danışılır. Lakin kriminalistika tarixində elə hadisələr var ki, istintaqın taleyini nə silah, nə şahid ifadəsi, nə də videomüşahidə görüntüsü dəyişib, məhz torpaqda və ya döşəmədə qalan bir ayaqqabı izi dəyişib. İlk baxışda adi görünən bu izlər əslində ekspertlər üçün qiymətli məlumat mənbəyidir. Onlar cinayətkarın hərəkət istiqaməti, təxmini boyu, istifadə etdiyi ayaqqabının markası və ölçüsü, hətta hadisə zamanı davranışı barədə mühüm ipucları verir. Bəzən isə məhz belə bir iz aylarla nəticəsiz qalan istintaqın gedişini tamamilə dəyişir.

### *Hər ayaqqabının öz “barmaq izi” var*

Kriminalistikada qəbul edilir ki, eyni model və ölçüdə istehsal olunan ayaqqabılar belə istifadə olunduqca fərdiləşir. Daban hissəsində yaranan aşınmalar, rezindəki çatlar, kəsiklər və digər deformasiya izləri zaman keçdikcə hər ayaqqabını unikal edir.

Hadisə yerində aşkar edilən izlər xüsusi fotoçəkiliş aparılaraq sənədləşdirilir. Sonra həmin materiallar şübhəli şəxsin ayaqqabısı ilə müqayisə olunur. Bəzən cəmi bir neçə millimetrlik uyğunluq belə ekspertiza üçün mühüm əhəmiyyət daşıyır.

### *Bir ayaqqabı izi silsilə qatilin izinə düşdü*

1985-ci ildə ABŞ-ın Kaliforniya ştatında silsilə qətllər törədən Riçard Ramires adlı cinayətkar uzun müddət hüquq-mühafizə orqanlarından yayınmağı bacarmışdı. Lakin cinayət yerlərindən birində qalan ayaqqabı izi istintaqın istiqamətini dəyişdi. Ekspertlər müəyyən etdilər ki, iz həmin dövrdə nadir rast gələn idman ayaqqabı markalarından birinə məxsusdur. Eyni daban naxışı sonradan bir neçə digər cinayət yerində də aşkar edildi. Bu, bütün qətllərin eyni şəxs tərəfindən törədildiyi ehtimalını gücləndirdi və istintaqın əsas istiqamətlərindən birinə çevrildi.

Ayaqqabı izi təkbaşına Ramirezin təqsirini sübut etmirdi. Lakin sonradan əldə olunan barmaq izləri və digər maddi sübutlarla birlikdə onun müəyyən edilməsində və cinayətlərin əlaqələndirilməsində həlledici rol oynadı.

### *Ayaqqabı izi nəyi “danışır”?*

Ayaqqabı izi yalnız ayaqqabının ölçüsünü göstərmir. Kriminalistika ekspertləri izin dərinliyinə əsasən şəxsin təxmini çəkisini, addımlar arasındakı məsafəyə görə hərəkət sürətini, izlərin istiqaməti və yerləşməsinə əsasən isə qaçdığını, sakit addımladığını və ya yük daşıdığını müəyyən edə bilirlər.

Qarlı, palçıqlı və tozlu səthlərdə qalan izlər daha çox məlumat daşıyır. Müasir texnologiyalar sayəsində hətta ən xırda detallar belə yüksək dəqiqliklə qorunur və sonradan təhlil edilir.

*Aytən Tahirova*

POLİS
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR:
ANAR QAFAROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11454
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az
Qiyməti 40 qəpik